





Ulucay AKİF

# OFSAYD

***

Quşlar dualarımızı
göylərə pıçıldamaqçün
uçar bu torpağın səmalarında,
Göylər dualarımızın rənginə boyanar sübh çağı.

*Görsən ki,*
yoxam bu yerin üstündə,
yoxam bu göyün altında,
*demək,* getmişəm,
*demək,* bir də gəlməyəcəm,
*demək,* Allah çağırıb.

*içimizə səpilmiş*
*ümid toxumlarıdır ağaclar,*
bulud-bulud su daşıyar Allah qəlbimizə.

*Görsən ki,*
yoxam bu yerin üstündə,
yoxam bu göyün altında,
*demək,* hər şey yaxşıdır,
*demək,* qayıtmışam evimizə.

## YURDUMUN İNSANI

*– bu kainatda günəşdən daha çox kim çalışır?*

*– yurdumun insanı ki,*
hər səhər günəşdən öncə çıxar evindən,
günəşdən öncə doğar bu torpağın üfüqlərində
və çantasındakı bir ovuc yeməyi də
doymaq üçün yox, ac qalmamaq üçün olar...

*yurdumun insanı ki,*
*Bənövşə* xaladır,
evinə çörək aparmaq üçün
çörək bişirib satar yüzlərlə insana.

*yurdumun insanı ki,*
üstünün toz-torpağı, ayaqqabısının palçığı
bu torpağın insanı olmağına dair
ən böyük sənəddir!

*yurdumun insanı ki,*
əllərinin qabarı, alnının qırışı
düşmən üçün ən böyük sərhəddir!

*yurdumun insanı ki,*
hər axşam günəşdən gec qayıdar evinə:
*yorğun, amma* xoşbəxt,
*yorğun, amma* məğrur,
*yorğun, amma* ümidli.

*və zənbilindəki* balaca çörəyi də
günəşdən də böyük sapsarı bir günəşdir!

## GİZLƏNQAÇ

Ucuz ətin şorbası ilə bayram keçirən ailələr
şükür etməyi öyrətdi uşaqlara
bizim balaca məhəllənin
kiçik evlərində...
o uşaqları
nə atalar sözləri aldada bildi,
nə də qorxuda bildi kapitalizmin qəddar marşları...
və beləcə kasıb ailələrin uşaqları da
yavaş-yavaş böyüməyə başladı...

*o uşaqlar ki,*
küçə davalarında nə döyülənə lağ etdi,
nə də döyəni alqışladı,
kin saxlamadı ürəyində.
*o uşaqlar ki,*
düzəltdiyi ilk oyuncaq
taxtadan silah oldu.
müharibənin nəfəsini hiss etdi kürəyində...
*o uşaqlar ki,*
"bacı", "qardaş" sözlərinin
qan bağı ilə yaranmadığını bildi.
dost dediklərimiz də ən az ailəmiz qədər bizdəndi
və biz
*qizlənqaç oynayanda da*
*dostlarımızın tapa biləcəyi yerdə gizləndik.*

## VƏRDİŞ

Çox pis vərdişlərim var...
*məsələn,* bir yaz günü
*aşiq olaram* tanımadığım qızın
əllərinə, ayaqlarına, sinəsinə...
*aşiq olaram* yarpaqların rəqsinə,
günəşin gülüşünə, küləyin əsməsinə...

çox pis vərdişlərim var...
*Məsələn,* bir yaz günü
ümid dolar içimə,
məsciddən çıxıb kafeyə gedərəm,
qaldırıb badəmi deyərəm:
*– bunu da Tanrının sağlığına içirəm!*

çox pis vərdişlərim var...
*Məsələn,* bir yaz günü
unudaram adını, səsini,
çıxarsan yadımdan...
*məsələn,* bir yaz günü
keçərsən yanımdan,
yaxınlaşıb deyərəm:
*– Sevirəm!*

## OFSAYD

*Tam "xəyallarım gerçəkləşdi"*
*deyib sevinmək istəyəndə*
*həyat bayrağını qaldırır:*
***off-side!***

**SUAL**

İnsanları dinlər yox, dillər ayırdı.
mən öz dilimdə dedim,
sən öz dilində eşitdin.
insanları dinlər yox, dillər ayırdı.
mən öz dilimdə salamlaşdım,
sən öz dilində sağollaşdın.

nə atom bombası var idi onda,
nə də gilyotini kəşf etmişdi adamlar.
*hələ* ucaltmamışdı Çin səddini adamlar,
*hələ* yox idi aramızda sərhədlər.

gəmirmirdi torpağı neft buruqları,
qusmurdu insanların üzünə torpaq qapqara neft.
Misir fironları da fironluq etmirdi hələ,
əlimizdə rəngli parçalarla qaçmırdıq hərblərə.

*təzəcə* baş açmağa başlamışdıq təbiətdən,
*təzəcə* qovulmuşdu Adəm cənnətdən.
hələ etməmişdi ən böyük səhvi insanlar,
hələ etməmişdi ən böyük kəşfi insanlar.

indi kimi günahkar saymalıyıq düşüb izə,
lənətləməliyik eramızdan əvvəl neçənci min ili?
*görəsən*, *kim* etdi bu qəddarlığı bizə,
*görəsən*, *kim* yaratdı,
*kim yaratdı ikinci dili?*

**VƏ HEÇ NƏ...**

Tanrıya inanmadan ibadət etmək kimidir
sevmədən sevişmək.
yavaş-yavaş özgələşir bədənin,
əvvəlcə özünə, sonra başqalarına...
yavaş-yavaş çürüyür əllərin,
ayaqlarınla özünü tərk edirsən.

bir də görürsən ki,
keçmişinlə bağlı planlar qurursan:
*bu şəhərdə doğulacam,*
*bu şəhərdə aşiq olacam,*
*bu şəhərdə tərk ediləcəm...*

unutmaq da,
unudulmaq qədər ağır olur,
qalın zəncir kimi asılır boynundan.

*təbriklər!*
bu gündən sən də
"ayrılıq" adlı diktatorun
köləsinə çevrilirsən...

sonra
həzin bir yaz gecəsində
gələcəyini xatırlamağa çalışırsan:
*görəsən, harada, nə vaxt*
*və necə ölmüşdüm?*
unutmuşam,
bilmirəm...

artıq mahnılar da
heç kimi xatırlatmır...
dinləyirsən, dinləyirsən
və heç nə eşitmirsən.

*yəni bəzən*
*sadəcə yox olursan,*
*heç ölə də bilmirsən...*

**QAPI**

*Əvvəl*
*hasarlar ucaltdıq,*
*evlərin,*
*şəhərlərin,*
*ölkələrin arasında.*
*Sonra*
*hasarları keçmək üçün*
*qapıları yaratdıq,*
*evlərin,*
*şəhərlərin,*
*ölkələrin arasında.*
*qəddarlıq etdik,*
*özümüzü hasara aldıq*
*və anlamadıq ki,*
***qapının hansı tərəfində dursaq da,***
***hər zaman arxasında qalırıq...***

**ÇƏRPƏLƏNG**

*Balaca Zəhraya ithaf olunur*

*uşaqlar ölmür, bilirəm,*
*uşaqlar oynamağa daha gözəl yer tapır,*
*orada uşaqlar daha xoşbəxt, daha dəcəl,*
*səmasında təyyarələr yox,*
*çərpələnglər uçar sadəcə,*
*sən də ora getdin,*
*bilirəm...*

*musiqisi quşların səsi,*
*sözləri uşaqların gülüşü olan*
*mahnı bəstələmədik,*
*ona görə küsdün,*
*ona görə getdin bizdən.*
*Zəhra,*
*sənə bir sualım var:*
*– bağışlamaq nədir, bilirsənmi ki,*
*bizləri bağışlamayasan?*

**S.O.S**

*Görüş yerimiz olan,*
*metrodakı s.o.s*
*indi*
*yoxluğunu yadıma salan*
*ən kədərli abidədir...*

P.S. ***S***ən ***O***nu ***S***evirsən

*******

Küçə lampaları kimi söndü gülüşün
bir-bir, asta-asta, həm də
səhərə yaxın...

indi sən də
günəşi sadəcə görürsən,
istisini hiss etmirsən...

*bilirəm, bilirsən...*

indi sən
yazdığım ən gözəl,
yaşadığım ən bərbad şeir kimisən,
gülüşünü itirmisən...

yəni
səni tərk edəndən gedə bilmirsənsə,
deməli, *ayaqlarının*
*istifadə müddətini bitirmisən...*

*çağırıram, gəlmirsən...*

və bir gün
*bədənindəki bütün ağrılar xatirəyə,*
*qəlbindəki ağrılar isə xəritəyə çevrilir...*

*sənə heç nə demirəm, eşidirsən?*

**GECƏ DUASI**

*bir gecəlik də* uzaqlaşaram keçmişimdən,
*bir gecəlik də* artar xatirələr.
təkcə necə olduğumu soruşma məndən,
ölümə gedən yolda bir az dincəlirəm.

əlimi uzatsam, tutacaq qədər yaxındır ay,
bu gecə də beynimin küçələrində
boş-boş veyillənirəm.

*bir gecəlik də* uzaq düşürəm keçmişimə,
*bir gecəlik də* artır xatirələr,
mənsə təkcə sənin dodaqlarından
adımı eşitmək istəyirəm.

*bir gecəlik də* çürüyür bədənin,
çürüyür mən toxuna bilmirəm deyə,
mənsə səni düşünürəm,
yəni ibadət edirəm.

*Mən*:
– səni düşünürəm.
*O*:
– Allah qəbul etsin!
*Allah*:
– eşidirəm.

**SİQARET KÖTÜYÜ**

*eşitməyən qulaqlardır,*
*danışan başlardır Bakı.*
*nə yaxın dinləyər səni,*
*nə eşidər uzaqdakı.*

*elə bil palçıq kimiyəm,*
*sıçramışam bir səkiyə.*
*hamı əzir addım-addım,*
*çəkinmə, sən də tapdala.*

*ağrıların dinsin deyə,*
*ruhunu ruhuma sarı,*
*ya siqaret kötüyütək*
*vur səkidən yola sarı...*